## IOTA İcraiyyə Şurasının 82-ci iclası

Bu günlərdə Litvanın paytaxtı Vilnüs şəhərində Avropadaxili Vergi Adminstrasiyaları Təşkilatının (IOTA) İcraiyyə Şurasının 82-ci iclası keçirilmişdir. İclasda Azərbaycan Respublikasının vergilər nazirinin beynəlxalq münasibətlər və vergi ödəyicilərinə xidmət sahələri üzrə müşaviri Ələkbər Məmmədov iştirak etmişdir. Tədbirdə IOTA-nın 2012-2017-ci illəri əhatə edən yeni strategiyası, 2013-cü il üçün nəzərdə tutulan büdcə, cari ilin iyul ayında Norveç Krallığının paytaxtı Oslo şəhərində keçiriləcək Baş Assambleyaya hazırlıq işləri və digər aidiyyəti məsələlər müzakirə olunmuşdur.

Tədbir çərçivəsində Ələkbər Məmmədov IOTA ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində Vergilər Nazirliyinin yeni təkliflər paketini təqdim etmiş, nazirliyin Tədris Mərkəzi haqqında hazırlanmış qısametrajlı film nümayiş olunmuşdur.

IOTA tərəfindən Luksemburq şəhərində Avropa İttifaqına daxil olmayan ölkələr üçün «ƏDV üzrə fırıldaqçı sxemləri» mövzusunda seminar keçirilmişdir. Seminarın əsas məqsədi iştirakçılara təqdim edilən materiallar əsasında transmilli ƏDV üzrə fırıldaqçılıq sxemlərinin aşkarlanması və qarşısının alınması istiqamətində cari bilik və müəyyən şablonlardan istifadə edərək təmsil etdiyi ölkə üçün faydalı və müsbət nəticəli ƏDV üzrə anti-firildaqçılıq strategiyalarının və proqramların hazırlanması, bu sahədə yerli qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi bacarığının aşılanması və müəyyən təşəbbüslərin formalaşdırılması olmuşdur.

Tədbirdə Azərbaycanı Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin Təşkilat-analitik şöbəsinin rəisi Emin Bəylərov təmsil etmişdir.